## *QIŞ İMTAHAN SESSİYASI BAŞA ÇATDI.*

Elm və Təhsil Mərkəzi Təfəkkür Universitetində 2017-2018-ci tədris ilinin qış imtahan sessiyası başa çatmışdır. Tələbələrin əksəriyyəti imtahanlardan müvəffəq qiymətlər almışlar.

Universitetin təhsil idarəsinin rəisi Arzu Axundova bildirir ki, tələbələrin biliyinin düzgün qiymətləndirilməsi, imtahanlarda şəffaflığı, obyektivliyi təmin etmək məqsədi ilə rektorun əmri ilə yaradılmış xüsusi komissiya və nəzarət qrupu imtahanların gedişinə daim nəzarət etmişdir. Qərargaha və nəzarət qrupuna daxil olan müraciətlər dərhal və diqqətlə araşdırılmış, qanun çərçivəsində müvafiq qərarlar qəbul edilmişdir.

Keçirilən bütün imtahanların nəticələri nəzərdə tutulan vaxtda elan olunmuş, tələbələrə biliklərini nümayiş etdirmək üçün hər cür şərait yaradılmışdır.